# Bələdiyyə seçkilərinə sayılı günlər qaldı

***Müstəqilliyimiz bərpa olunduqdan sonra Azərbaycan Respublikasında yerli idarəçilik mexanizmi olan bələdiyyələrin təşkil olunması və seçkilərin keçirilməsi üçün bələdiyyələr haqqında, bələdiyyələrə seçkilər haqqında, bələdiyyələrin səlahiyyətləri və vəzifələri haqqında bir neçə qanun qəbul olunub. Ümummilli lider Heydər Əliyev ilk bələdiyyə seçkiləri öncəsi xalqa müraciəti zamanı deyirdi: "Biz Azərbaycanda qeyri-dövlət, tam müstəqil yerli özünüidarəetmə orqanları yaradırıq. Bu, həm demokratiyanın inkişafı deməkdir, eyni zamanda, ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaradılmasının göstəricisidir. Əgər bələdiyyə seçkiləri uğurla keçirilsə, əgər bələdiyyələrə həqiqətən, hər bir bölgədə fəaliyyət göstərib xalqa xidmət etmək arzusunda olan insanlar seçilsə və bu insanlar həqiqətən, bələdiyyə üzvü olaraq xalqımıza yaxşı xidmət göstərə bilsə, təbiidir ki, bu, bizim ölkəmizin inkişafında çox böyük rol oynayacaq və dövlətin qarşısında duran vəzifələrin bir qismini bələdiyyələr öz üzərinə götürəcəkdir". Ulu öndərin bu fikirləri bələdiyyə seçkilərinə verilən önəmin, dəstəyin birbaşa göstəricisi idi.***






Ümumiyyətlə, Azərbaycanda bələdiyyə institutunun formalaşdırılması məsələsi ilk dəfə Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış və 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Onun rəhbərliyi dövründə bu istiqamətdə 20-dən çox qanun qəbul olunmuş, 300-ə qədər qanunda dəyişikliklər edilmiş, onlarca fərman və sərəncam imzalanmışdır. Beləliklə, bələdiyyələrə seçkilərin keçirilməsi üçün lazımi işlər görüldükdən sonra 12 dekabr 1999-cu il tarixinə ilk seçkilər təyin olundu.

1999-cu ildə ölkədə keçirilən ilk bələdiyyə seçkilərində 22 min nəfərdən artıq bələdiyyə üzvü seçilərək 2667 yerli özünüidarəetmə orqanı təşkil olundu. Ulu öndərin müvafiq sərəncamı ilə 2000-ci ildə Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzi yaradıldı.

Növbəti, 2004-cü il dekabrın 17-də ikinci bələdiyyə seçkiləri keçirilməklə yerli özünüidarəetmə orqanlarının inkişafının yeni mərhələsi başlandı. Həmin seçkilərdə 2731 bələdiyyəyə 20356 bələdiyyə üzvü seçildi.

Ölkəmizdə 2009-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmiş III seçki də mühüm siyasi tədbir kimi, böyük önəm daşıyırdı. Azad, demokratik və şəffaf şəraitdə keçirilmiş seçkilər nəticəsində 15591 nəfər bələdiyyə üzvü seçildi. Seçilmiş bələdiyyə üzvləri 10 siyasi partiyanı təmsil edirdi. Bu seçkilər seçilmiş bələdiyyə üzvləri sırasında qadınların və gənclərin xüsusi çəkisinin əvvəlki seçkilərdən fərqli olaraq xeyli artması ilə əlamətdar idi. Belə ki, qadınların sayı 4243 nəfər, gənclərin sayı isə 4000 nəfərdən çox idi.

2014-cü ildəki məlum birləşmədən əvvəl 1717 bələdiyyə mövcud idi. 30 may 2014-cü il tarixdə qəbul edilən "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Qanunla 21 rayon üzrə 204 bələdiyyənin birləşməsi nəticəsində 94 yeni bələdiyyə yaradıldı və 110 bələdiyyə ləğv edildi. Hazırda 1607 bələdiyyə üzrə 15035 bələdiyyə üzvü fəaliyyət göstərir.

Bu il dekabrın 23-də ölkəmizdə keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq prosesi də artıq yekunlaşmaq üzrədir. Bələdiyyə seçkilərinə start verildiyi gündən bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi kampaniyası başlanıb və sevindiricidir ki, bu mərhələ heç bir xoşagəlməz hal baş vermədən şəffaf mühitdə müxtəlif siyasi qüvvələrin fəallığı ilə diqqət çəkir. Namizədlərin hazırlıq kampaniyası, MSK-nın və DSK-ların prosesi təşkil etmək üçün bütün güclərini səfərbər etmələri cəmiyyətdə seçkilərdə fəallıq hissini yüksəltmişdir. Artıq sosial şəbəkələrdə hər bir qəsəbənin belə bələdiyyə üzvlərinin təbliğatına, əhali ilə sıx təmasını əks etdirən foto və videolar görmək mümkündür. Bu isə onu göstərir ki, builki bələdiyyə seçkiləri əvvəlkilərdən də gərgin keçəcək.

Seçki prosesinin mühüm mərhələləri olan seçici siyahılarının dəqiqləşdirilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, seçicilər də daxil olmaqla, bütün seçki subyektlərinin maarifləndirilməsi, bələdiyyə üzvlüyünə namizədliyin irəli sürülməsi və qeydə alınması, bərabər şərtlərə əsaslanan seçkiqabağı təşviqat imkanının yaradılması, müşahidəçilər və kütləvi informasiya vasitələri nümayəndələrinin sərbəst fəaliyyəti üçün tam azad və maneəsiz şəraitin yaradılması ilə bağlı addımlar MSK-nın hazırlayıb təsdiq etdiyi Təqvim Planına əsasən atılmaqdadır.

Bütövlükdə seçkilərin milli qanunvericiliyə və müasir beynəlxalq normalara uyğun şəkildə keçirilməsi üçün, sistemli iş aparılır və prosesin yüksək səviyyədə təşkil olunmasına diqqət yetirilir. Vətəndaşlarımızın seçmək və seçilmək kimi əsas konstitusion hüquqlarının təmin olunmasında seçici siyahılarının mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, MSK Seçki Məcəlləsinin tələblərinə əsasən hər il olduğu kimi, 2019-cu ildə də seçici siyahılarının dəqiqləşdirilməsinə ciddi diqqət yetirib. Yanvar ayının əvvəllərindən mayın sonunadək həyata keçirilən kifayət qədər irimiqyaslı və əhatəli işə ölkə üzrə aşağı seçki komissiyalarının otuz mindən artıq üzvü cəlb olunub. Bütün proses boyu həm aidiyyəti dövlət orqanları, həm də yerli qurumlarla sıx əməkdaşlıq edilib. Siyahılar dəqiqləşdirildikdən sonra keyfiyyətlə tərtib və çap edilərək qanunvericilikdə nəzərdə tutulan müddətdə seçki komissiyalarına çatdırılıb. Onlar seçki məntəqələrində asılmaqla, eləcə də MSK-nın rəsmi internet səhifəsində yerləşdirilməklə seçicilərə və geniş ictimaiyyətə təqdim olunub.

2019-cu il bələdiyyə seçkilərində seçici fəallığı və bələdiyyələrin keyfiyyət tərkibi üzrə seçki hüququna malik olan vətəndaşların fəallığı artacaq ki, bu da bələdiyyələrin fəaliyyətinin növbəti illərdə daha səmərəli olacağına, onların vətəndaşlara göstərdikləri xidmət səviyyəsinin daha yüksək və keyfiyyətli olmasına xidmət edəcəkdir.

Yerli əhəmiyyətli məsələlərin həlli üçün görülmüş işlərin genişləndirilməsində bələdiyyələr xarici həmkarların təcrübə və imkanlarından da səmərəli istifadə edirlər. Son illər ərzində beynəlxalq təşkilatlarla əlaqələrin qurulması və möhkəmləndirilməsi işi də gündəmdə saxlanılmışdır. Əməkdaşlıq çərçivəsində Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresi, Avropa İttifaqının Şərq Tərəfdaşlığı Ölkələrinin Regional və Yerli Hakimiyyətlər Nümayəndələrinin Konfransı və digər nüfuzlu beynəlxalq təşkilatlarla işgüzar münasibətlər qurulmuşdur. Azərbaycan bələdiyyələrinin fəaliyyətinə diqqət etsək, görərik ki, Türkiyə, Gürcüstan, Almaniya, Avstriya, Latviya, Litva, Estoniya, Rusiya kimi ölkələrin bələdiyyə orqanları və onların yaratdıqları milli ittifaq və birlikləri ilə sıx əməkdaşlıq əlaqələri qurulub, qardaşlaşma haqqında 30-a yaxın protokol və saziş imzalanıb, qarşılıqlı səfərlər təşkil edilib.

Hətta qardaşlaşmış bələdiyyələr arasında təcrübə mübadiləsi də həyata keçirilir. Ölkəmizdə keçirilən bütün seçkilər daim yerli və beynəlxalq ictimaiyyətin maraq dairəsində olaraq, çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin iştirakı ilə xarakterizə olunub. Bu baxımdan, bələdiyyə seçkilərində də aşkarlığın və şəffaflığın daha geniş təmin olunması üçün bütün digər vasitələrlə yanaşı, MSK tərəfindən Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinə və 15 ölkənin ali seçki qurumlarına dəvətnamələr göndərilib.

Bələdiyyə seçkilərində iştirakçılara bərabər şərtlər və eyni imkanlar yaradılması, seçicilərin öz hüquqlarından tam maneəsiz və sərbəst istifadə etmələri və beləliklə, seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün geniş iş aparılır və bütün addımlar atılır. Seçkilərin yüksək səviyyədə təşkil olunub keçirilməsində maarifləndirmənin mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, MSK çoxsaylı irimiqyaslı maarifləndirmə layihələri gerçəkləşdirib. Bələdiyyə seçkiləri ilə əlaqədar olaraq, müşahidəçilərin, kütləvi informasiya vasitələrinin yaxından iştirakına tam şərait yaradılmışdır, qaynar xətt, internet resursları və seçki günü prosesləri birbaşa izləməyə imkan verən veb-kameralardan geniş istifadə olunacağı şübhə doğurmur.

Bütün bunlar onun nəticəsidir ki, ölkəmizdə yerli özünüidarəetmə orqanlarının səmərəli fəaliyyəti üçün dövlət tərəfindən sistemli tədbirlər həyata keçirilmiş, mükəmməl qanunvericilik bazası və institusional təsisatlar yaradılmış, bələdiyyə institutu tam formalaşmışdır. Əminliklə demək olar ki, dekabrın 23-dən sonra ölkəmizin sürətli sosial-iqtisadi inkişafı fonunda bələdiyyə sisteminin təkmilləşdirilməsi, bələdiyyə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması, maliyyə və iqtisadi potensialının gücləndirilməsi, həmin qurumlarda çalışan kadrların keyfiyyət tərkibinin daha da yaxşılaşdırılması daha aydın görünəcəkdir.

Bir məqamı da xüsusilə qeyd etmək lazımdır ki, son bir ildə Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan islahatların təsiri növbəti bələdiyyə seçkilərində gənclərin daha fəal iştirakı ilə təmin olunacaqdır. Bütövlükdə istər bələdiyyə, istərsə də parlament seçkilərinin bir-birinə yaxın vaxtlara təsadüf etməsi Azərbaycanda aparılan kompleks islahatların mühüm məntiqi davamı hesab edilir. Bu məntiqi ardıcıllığın əsas məqsədi isə dövlətimizin vətəndaşlarımızın rifahının yüksəldilməsi, onların zəruri problemlərinin həlli istiqamətində apardığı siyasət dayanır.

***Anar ƏLİYEV, "Xalq qəzeti"***